# Muradına yetişən qəhrəman

**Haqq yolunda iki damla qan axıdanlara qədir-qiymətdə çatmaq olmaz. Deyirlər, şəhid haqqı o qədər dəyərlidir ki, onların hətta axirətdə tayı-bərabəri tapılmaz. Azərbaycan da dünyanın elə diyarlarındandır ki, müqəddəs torpaqlarımız uğrunda canını qurban vermiş on minlərlə şəhidi var. O şəhidlər ki tarix yazmağı bacarmış, ən ali zirvəyə ucalmışlar...**











Mənalı ömür yolu ilə tariximizin şanlı Aprel döyüşlərində iz qoymuş belə igidlərimizdən biri də Azərbaycanın Milli Qəhrəmanı Murad Mirzəyevdir. Xüsusi Təyinatlı Qüvvələrin zabiti, polkovnik-leytenant Murad Mirzəyev həmin günlərdə keçirilən hərbi əməliyyatlarda qəhrəmanlıq nümayiş etdirmiş, komandiri olduğu hərbçilərlə bərabər yüzlərlə ermənini məhv etmiş və aprelin 3-də Tərtərin Talış kəndi uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur.

## Zabit diplomunu Ümummilli Lider Heydər Əliyev təqdim etmişdi

Murad Telman oğlu Mirzəyev 1976-cı il martın 31-də Sabirabad rayonunun Muğangəncəli kəndində anadan olub. Orta təhsilini kənd məktəbində alan Murad 1991-ci ildən Cəmşid Naxçıvanski adına Hərbi Liseydə təhsilini davam etdirib. İlk hərbi təhsili Birinci Qarabağ müharibəsi dövrünə təsadüf etdiyindən döyüşlərə qatılmaq istəyib, lakin yaşı az olduğuna görə müraciəti qəbul edilməyib. O, 1994-cü ildə Türkiyə Ali Hərbi Quru Qoşunları Məktəbinə qəbul olub, 1998-ci ildə həmin məktəbi birincilər sırasında bitirib və 600 nəfərlik yerli və əcnəbi hərbçi məzun arasından "Onur başkanı" təyin olunub. Murad Mirzəyevə zabit diplomu və xatirə "Qılınc və məzun üzüyü" Ümummilli Lider Heydər Əliyev və Türkiyənin sabiq Prezidenti Süleyman Dəmirəl tərəfindən təqdim edilib. 1999-cu ildən etibarən isə o, bir neçə hərbi kursu uğurla başa vuraraq Türkiyə Silahlı Qüvvələrinin 4-cü motoatıcı briqadasında taqım komandiri vəzifəsində xidmət edib.

Murad Mirzəyev 2005-2007-ci illərdə ABŞ-nin Virciniya ştatında xüsusi təyinatlılar üçün nəzərdə tutulmuş, müasir hərb sənətinin ən çətin təlimlərindən hesab edilən "Ranger" kurslarında iştirak edən yeganə azərbaycanlı olub. Prezident İlham Əliyevin sərəncamları ilə iki dəfə "Qüsursuz xidmətə görə", iki dəfə "Hərbi xidmətdə fərqlənməyə görə", üç dəfə isə "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yubiley medalı" olmaqla, ümumilikdə 7 medalla təltif edilib. Ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb.

## Son nəfəsinə qədər azad etdiyi mövqedən geri çəkilməyib

Canlarını Vətən uğrunda qurban verib haqq dərgahına ucalan şəhidlərimiz xalqımızın ocağını alovlandırıb, işığına işıq qatıblar. Öz cəsədləri ilə torpağımızın bağrına azadlıq toxumları səpiblər. Şəhidimizin döyüş yoldaşlarının dediklərinə görə, Murad son nəfəsinə qədər azad etdiyi mövqedən geri çəkilməyib, yaralanmasına baxmayaraq, döyüş meydanını tərk etməyib.

Murad Mirzəyevin xanımı Fizzə Mirzəyeva da həyat yoldaşının qəhrəmanlığından, Vətəninə, torpağına, ailəsinə bağlılığından qürurla, fəxrlə danışır. Deyir ki, Muradın yoxluğunda bütün təsəllilər sönük qalsa da, Vətən müharibəsində torpaqlarımızın işğaldan azad edilməsi, ərazi bütövlüyümüzün təmin olunması onun ürəyinə su səpib.

"Vətən müharibəsi başlayan gündən çoxlu dua edirdim ki, torpaqlarımız işğaldan azad olunsun. Ona görə də müharibə zamanı işğaldan azad edilən hər qarış torpağımıza görə fəxarət hissi keçirirdim. Cəbhədə döyüşənim, evə qayıdacağını gözlədiyim olmasa da, hiss edirdim ki, Muradın ruhu savaş meydanına çevrilən Vətən torpaqlarında, əsgər və zabitlərin yanında dolaşır", - deyə şəhidin həyat yoldaşı köksünü ötürür.

## Şəhid əmanəti

Fizzə xanım Muradın Vətənə əmanət qoyub getdiyi övladlarından - Nurlan və Dənizdən də söz açdı. Onların ataları ilə bağlı xatirələri, onu xoş xatırlamaları Fizzə xanım üçün dünyalara bərabərdir: "Murad şəhid olanda Nurlanın 7, Dənizin 5 yaşı vardı. Onları son görüşə aparmadım, istəmədim ki, ata tabutu görsünlər. Uşaq idilər axı, atalarını sonuncu dəfə necə görsələr, ömür boyu da elə xatırlayacaqdılar", - deyir şəhid xanımı.

Əlavə edir ki, Muradın ailəsinə, Vətənə bağlılığı onu hər zaman heyran qoyub, həmişə düşündürüb: "Komandiri olduğu əsgər və zabitlərə xüsusi diqqət göstərirdi. Deyirdi, onlar Vətənin keşiyində dayanırlar, canları bizə əmanətdir".

Muradın komandiri olduğu hərbçilərə diqqəti, qayğısı o qədər güclü olub ki, sanki ölümündən sonra təkcə övladlarını deyil, elə əsgər və zabitlərini də əmanət qoyub gedib. Fizzə xanım deyir ki, Azərbaycan dövləti və xalqı əmanətə sahib çıxmağı, onu göz bəbəyi kimi qorumağı yaxşı bacarır. Elə 44 günlük Vətən müharibəsi və ondan sonrakı dönəmlərdə də bütün bunlara şahidlik etdik.

## Milli Qəhrəmanımızın son nəfəsini duyan Talış kəndi

Şəhidlik zirvəsinə yüksəlməklə Murad Mirzəyev öz mətləbinə, ən ümdə muradına çatdı. Onun nəşi özünün də arzuladığı kimi, Azərbaycan bayrağına büküldü, Dövlət himnimizin sədaları altında ömrünü hədiyyə etdiyi torpağa tapşırıldı. Ailəsi, dostları, ən yaxınları deyirlər ki, bu gün Qarabağ deyəndə, Tərtər, Talış, Ağdam, Laçın sözlərini eşidəndə Muradı xatırlayır, onun əziz xatirəsini yad edirlər.

Şəhidin xanımı bildirir ki, Muradın uğrunda həlak olduğu Talış kəndi işğaldan azad ediləndə sevincindən ağlayıb: "Sanki ən böyük arzuma çatmışdım. Muradımın son nəfəsinin hopduğu Vətən torpaqları artıq düşmən tapdağından azad edilmişdi. O torpaqları Vətənimizin oğulları, qızları cənnətə çevirəcəklər. Bunlar məni çox xoşbəxt edir. İndi Talış kəndində bərpa-quruculuq işləri davam etdirilir, oraya Azərbaycan ailələri köçürülür. Təki Allah bütün torpaqlarımıza doğmalarının nəfəsini duymağı, əzizlərinin əməyi ilə əkib-becərilməsini, suvarılıb qorunmasını nəsib etsin".

Fizzə xanım onu da əlavə edir ki, şəhid ailələri hadisələri sanki iki cür - həm nikbin, həm də kədərli yaşayırlar: "Gün gəlir, Azərbaycanın himni şəhid ailəsinə onun ən doğmasının - atasının, oğlunun, həyat yoldaşının arzu-istəklərini, xəyallarını xatırladır. Bir də olur ki, himnimizin sədaları ilə son mənzilə şəhid yola saldığımız o günlər gözümüzün önündən çəkilmir. Amma nə olursa-olsun, o qürur hissi ki var, Allahın bəxş etdiyi ən gözəl nemətlərdəndir… Bax, belə olur".

Şəhidlik an məsələsi deyil, ən ali məramdır. Milli Qəhrəmanımız Murad Mirzəyevin də o məqama çatması, haqq dərgahına qovuşması yorulmadan arxasınca qaçdığı arzu və istəklərinin təcəssümüdür. Bu gün Murad Mirzəyevin və bütün Aprel şəhidlərinin ruhu rahatdır. Çünki onların arzuları həyata keçib, Vətən torpaqları işğaldan azad edilib.

***Nəzrin QARDAŞXANOVA,***
***"Azərbaycan"***

Azərbaycan. - 2023.-2 aprel.- S.6.